# Füzuli: aydın üfüqlər

**Ön də, arxa da cəbhə olan Füzuli rayonunda ötüb keçən illər ərzində işğaldan, erməni təcavüzündən zərər çəkmiş ərazilərdə müharibə ağrılarına məlhəm qoyulur. Füzulililər inam, əzmkarlıq, qətiyyət nümayiş etdirərək dövlət qayğısına əməli işləri ilə cavab veriblər. Burada məcburi köçkünlər üçün onlarca yeni qəsəbələr salınıb, insanlara rahat şərait yaradılıb.**

Görülmüş işlər, əldə olunmuş nəticələr füzulililərin Prezident İlham Əliyevin sosial-iqtisadi və siyasi dəst-xəttinə sadiq olduqlarını, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa uyğun çalışdıqlarının əyani sübutudur.

Ölkəmizin həyatında mühüm hadisələrlə yadda qalan 2017-ci il başa çatdı. Ötən il həm də bölgələrin inkişaf ili kimi də yadda qalıb. Füzuli rayonu da öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu barədə rayon icra hakimiyyətinin başçısı Alı Alıyev daha ətraflı məlumat verərək deyir:

-Rayonun makroiqtisadi göstəriciləri əvvəlki illərdə olduğu kimi, inkişaf etmiş, ayrı-ayrı sahələr üzrə istehsalın və xidmətin həcmi artmış, əhalinin həyat səviyyəsi yüksəlib. Yerli gəlirlərin 9 ay üzrə planı 4295602 manat plana qarşı 4350880 manat icra olunmuşdur ki, bu da 101 % icra deməkdir. Yanvar-sentyabr aylarında ümumi məhsul buraxılışının həcmi isə 134783.4 min manat təşkil edib. Ümumi məhsul buraxılışının əsasını sənaye, kənd təsərrüfatı və xidmət sahələri təşkil edib.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı rayonda uğurla icra edilir. Dövlət Proqramının qəbul olunduğu vaxtdan keçən dövrdə rayonda nəzərdə tutulmuş tədbirlərin əksəriyyəti icra olunmuş, digər tədbirlər isə nəzərdə tutulmuş müddətlərdə ardıcıllıqla yerinə yetirilir. Dövlət Proqramına uyğun olaraq rayon ərazisində davamlı abadlıq və quruculuq işləri aparılır, küçə və məhəllədaxili yollar çəkilir, kommunikasiya xətləri yenilənir, kommunal məsələlər, o cümlədən enerji, qaz, su və kanalizasiya ilə bağlı problemlər həll olunur.

Kənd təsərrüfatı məhsulları is-



tehsalında yüksək nəticələr əldə olunub. Son illər rayonda strateji məhsul olan taxılçılığın intensiv inkişafına xüsusi diqqət yetirilir. Artıq yeddinci ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tondan artıq məhsul istehsal edən rayonları sırasında öz yerini qoruyub saxlayır.

Prezident cənab İlham Əliyev respublikada ərzaq bolluğunun yaradılması, əhalinin mühüm strateji məhsul olan taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək üçün ölkədə iri taxılçılıq təsərrüfatlarının yaradılması qarşıya əsas məqsəd kimi qoyulub. Ölkə başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı təsdiq etdiyi Strateji Yol Xəritəsinə uyğun rayonda hər biri 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılıb, 2700 hektar torpaq sahəsi Aqroparkın istifadəsinə verilib. Aqroparkın ərazisində birinci mərhələdə 1000 hektar sahədə ölkənin strateji maraqlarına uyğun olaraq soya, qarğıdalı, taxıl, pambıq və digər bitkilər becəriləcək, həmçinin 1000 baş müasir-intensiv südlük istiqamətli heyvandarlıq kompleksi yaradılacaqdır. Aqroparkın istifadəyə verilməsi ilə rayon ərazisində, xüsusilə 11 Qayıdış qəsəbələrində yaşayan yüzlərlə məcburi köçkün işlə təmin olunacaq. Layihənin birinci hissəsinin bu il, bütövlükdə isə 2018-ci ildə tam başa çatdırılması nəzərdə tutulub. 500 hektar sahə isə rayonun taxıl istehsalçılarını yüksək reproduksiyalı toxumla təmin etmək üçün Azəraqro MMC-yə verilib.

Taxıl istehsalçıları 2016-2017-ci təsərrüfat ilində rayonda 36082 ha ərazidə taxıl əkini aparıblar ki, bunun da 24838 hektarı buğda, 11244 hektarı isə arpadır. 36 min hektar sahənin məhsulu çox qısa müddətdə, itkisiz və mütəşəkkil qaydada biçilmiş, sahələrdən 103076 ton taxıl məhsulu əldə edilib. Bunun da 73053 tonu buğda, 30023 tonu isə arpadır. Hər hektarın məhsuldarlığı 29 sentnerə yaxın olmuş, buğda istehsalında isə hektardan 30 sentner məhsul götürülüb. Dövlətimizin iqtisadi qüdrətinin artırılmasında mühüm ərzaq məhsulu sayılan taxılçılığın gələcəkdə daha da inkişaf etdirilməsi üçün rayonda bütün imkanlar mövcuddur.

Prezident cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən rayonda yaradılan 4 iri taxılçılıq təsərrüfatlarında xüsusilə yüksək məhsuldarlıq əldə edilmişdir.

Taxılçılığın gələcək inkişafına inanırıq, Kənd Təsərrüfatı İdarəsi, Aqrolizinq, Toxumçuluq müfəttişliyi, Bitki Mühafizə stansiyası, Laboratoriya və ümumiyyətlə kənd təsərrüfatı ilə məşğul olan digər təşkilatlar elə indidən 2018-ci ilin məhsulu üçün əsaslı tədbirlər həyata keçirirlər.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı, digər sahələrin də inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının respublikada ənənəvi təsərrüfat sahələri olan pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, əhalinin bu sahənin hesabına məşğulluğunun təmin olunması barədə tapşırıqlarına uyğun olaraq 2017-ci ildə rayonda 2050 hektar ərazidə pambıq əkilmiş, sahələrə lazımi aqrotexniki qulluq göstərilmiş, mineral gübrələr verilmiş, vaxtlıvaxtında suvarma suyu ilə təmin edilmişdir. Pambıq sahələrinin becərilməsinə minlərlə insan cəlb edilib, onların məşğulluğu təmin edilib. Hazırda rayonda pambıq yığımı başa çatıb. Füzulili pambıq istehsalçıları 4 min tona yaxın məhsul yığıb.

Rayonda ənənəvi təsərrüfat sahələrindən olan baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi əhali tərəfindən də razılıqla qarşılanıb. Bu il kümçülər 25 tona yaxın yaş barama istehsal ediblər. Füzuli rayonu barama istehsalında əldə etdiyi nəticəyə görə respublikada ilk üçlükdə yer tutub. Qısa müddət ərzində yüksək gəlir əldə edən füzulili kümçülər növbəti ildə 40 tona yaxın barama istehsal etməyi qarşılarına məqsəd qoyublar.

Rayonda kənd təsərrüfatının digər sahələrində əldə olunan göstəricilər də ürəkaçandır. Belə ki, rayonda 3725 ton tərəvəz, 2827 ton bostan, 1551 ton üzüm, 15 ton çəltik, 1769 ton kartof, 2691 ton meyvə toplanmış, 2012 ton ət, 17837. 2 ton süd, 6215.0 min ədəd yumurta istehsal olunub. Sevindirici haldır ki, əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir və respublika bazarına bir sıra məhsullar da çıxarılır.

Rayonda sahibkarlığın inkişafına ciddi fikir verilir. Sahibkarlığın inkişafına yaradılan şəraitin nəticəsidir ki, yüzlərlə şəxs rayonda sahibkarlıq fəaliyyəti ilə məşğul olur, rayonun iqtisadiyyatının möhkəmlənməsində yaxından iştirak edirlər. Onlarca insan rayonda kənd təsərrüfatı, kiçik emal müəssisələri yaradaraq məhsul bolluğu yaradır, yeni iş yerləri açır, sahibkarlıq fəaliyyətlərini genişləndirirlər. Rayonda kənd təsərrüfatı sahəsində daimi və mövsümi olmaqla ümumilikdə 4330 iş yeri yaradılıb.

Ünvanlı sosial yardım alan vətəndaşlar dövlət tərəfindən qayğı ilə əhatə olunublar. Sosial yardıma ehtiyacı olan insanlar, ünvanlı sosial yardımların ədalətlə müəyyənləşdirilməsi və sahiblərinə çatdırılması işi bu ilin doqquz ayında da davam etdirilmişdir. Hesabat dövründə rayonda ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 364 ailə olmaqla 1629 nəfər olub.

Qışa hazırlıqla bağlı rayonda



əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi, qaz, içməli və suvarma suyu ilə təminatı sahəsində müəyyən işlər görülmüş, köhnəlmiş və sıradan çıxmış elektrik naqilləri, qaz və su boruları yeniləri ilə əvəz olunmuş, şor və dren kanalları təmizlənib.

Ötən müddət ərzində Horadiz şəhərində, Bala Bəhmənli, Böyük Bəhmənli, Kürdmahmudlu, Aşağı Yağlıvənd, Kərimbəyli, Arayatlı, Qayıdış və Zobucuq qəsəbələrində sıradan çıxmış xətlər, elektrik mühərrikləri təmir edilmiş, su verilişində əsasən nöqsanlar aradan qaldırılıb.

Dövlət Proqramına uyğun Füzuli rayonu 100 faiz qazlaşdırılıb. Rayonun 39 yaşayış məntəqəsinin hər birində əhali təbii qazdan istifadə edir.

Ərazidəki 46 ümumtəhsil müəssisəsinin hamısı, tibb müəssisələrinin əksəriyyəti yenidən tikilmiş və ya əsaslı bərpa olunmuş binalarda yerləşir. Rayonun ümumtəhsil məktəblərini bitirən məzunlardan 375-i ali məktəblərə, 11-i isə xüsusi təyinatlı məktəblərə, 120 şagird isə orta ixtisas məktəblərinə qəbul olunub. Gənclərdən 25 nəfəri 500-600 arası, 14 nəfəri isə 600-dən çox bal toplayıb. Şagirdlərimizin ali məktəblərə keçirilən qəbul imtahanlarında qazandıqları nəticələr ildən-ilə müsbət dinamika ilə inkişaf edir. Gənc nəsil bizim sabahımızdır, sabahımızın etibarlı əllərdə olması, sağlam dünyagörüşlü nəslin yetişdirilməsi çox vacib məsələdir.

İnsan amili ekoloji təmizlikdən, ətraf mühitin qorunmasından çox asılıdır. Rayonda təbiətin ağ ciyərləri sayılan yaşıllıq zolaqları genişləndirilir, ağac kəsilməsinə qarşı ciddi mübarizə aparılır.

Respublikanın bütün bölgələrində olduğu kimi, Füzuli rayonunda Heydər Əliyev Fondunun, fondun prezidenti Mehriban xanım Əliyevanın qayğı və diqqəti ni əhalimiz daim hiss edir. Fond Füzulidə 5 böyük layihə həyata keçirib. Mən bütün füzulililər adından rayonumuza göstərdiyi diqqət və qayğıya görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm.

Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" kompleksi, Üçüncü Zobucuq qəsəbəsində kənd təsərrüfatı məhsullarının satışı üçün bazar və pambıq qəbulu məntəqəsi tikilərək istifadəyə verilib. Hazırda Horadiz şəhərində Dövlət Bayrağı Meydanının ərazisində Bayraq Muzeyinin tikintisinə başlanılmış, barama qəbulu və emalı məntəqəsinin tikintisinə isə yaxın günlərdə başlanacaqdır.

Rayonda kəndarası və magistral avtomobil yollarının əsaslı təmir-bərpa işləri də sürətlə davam etdirilir. Ölkə başçısının tapşırığına əsasən 25 min nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən 31,7 km-li Əhmədbəyli-Alxanlı-Zobucuq, həmçinin Bala Bəhmənli-Araz Dilağarda-Araz Zərgər, o cümlədən 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolları yenidən qurulub. Rayon ərazisində ümumilikdə 80 km-ə yaxın kənd və qəsəbəarası yolların bərpası işləri başa çatdırılıb. Hacıqabul-Bəhramtəpə-Mincivan magistral avtomobil yolunun Füzuli rayonu ərazisindən keçən 40 km-lik hissəsində aparılan əsaslı təmir-tikinti işləri başa çatıb.

Rayon icra hakimiyyəti bir qayda olaraq şəhid ailələrinə, Qarabağ əlillərinə, ərazidə fəaliyyət göstərən hərbi hissələrin əsgər və zabitlərinə diqqət və qayğı ilə yanaşır, onlara imkan daxilində köməklik göstərir.

Rayonun 55 min nəfərə yaxın əhalisi respublikanın 55 şəhər və rayonunda məskunlaşıb. Müəyyən olunmuş qrafik əsasında füzulili məcburi köçkünlərin daha çox məskunlaşdıqları Bakı, Sumqayıt şəhərlərində, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında xidmət təşkilatlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri, ərazi icra nümayəndələri ilə birlikdə görüşlər keçirilir, söhbətlər aparılır, vətəndaşları narahat edən məsələlər yerindəcə həll olunur.

Mübaliğəsiz demək olar ki, rayonda həyata keçirilən tədbirlər, sosial-iqtisadi inkişaf, qəsəbələrin və kəndlərin görkəminin yaxşılığa doğru dəyişməsi, insanların fəallığının artması diqqəti daha çox cəlb edir. Əməldə də, ruhda da, niyyətdə də yaxşı mənada köklü dəyişiklik baş verir.

**Salman ALIOĞLU,**
**"Respublika".**




